

# İğtişaşların əsl mahiyyəti

***1988**-ci il fevralın 28-də baş vermiş Sumqayıt hadisələri SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ilə ermənilərin Azərbaycana qarşı həyata keçirdikləri növbəti təxribat idi. Əsas məqsəd dünya ictimaiyyətində Azərbaycan əleyhinə yanlış rəy formalaşdırmaq və anti-Azərbaycan əhvali-ruhiyyəsi yaratmaq idi. Hadisələrin təşkilatçısının erməniəsilli, iki dəfə məhkum olunmuş Eduard Qriqoryan olduğu şahid ifadələri və rəsmi məhkəmə qərarları ilə təsdiqlənib. O, Sumqayıt hadisələri zamanı beş ermənini şəxsən qətlə yetirib və iğtişaşların əsas iştirakçılarından biri olub.*

1988-ci ildə Sumqayıt şəhərinin 258 min əhalisindən təxminən 18 mini erməni idi. Fevral ayına qədər şəhərdə etnik zəmində heç bir qarşıdurma qeydə alınmamışdı. Lakin 26-28 fevral tarixlərində baş verən iğtişaşlar nəticəsində 32 nəfər həlak olmuşdur: Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı idi. 198 nəfər yaralanmış, 87-si xəstəxanaya yerləşdirilmişdi. Hadisələr zamanı 60 mənzil qarət olunmuş, 14 avtomobil yandırılmış, 16 ticarət obyektinin şüşələri sındırılmış və Azərbaycan SSR Daxili İşlər Nazirliyinə məxsus 17 avtomobilə zərər vurulmuşdur.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və azərbaycanlıların tarixi torpaqlarından qovulması fonunda baş verən hadisələr xüsusi hazırlanmış ssenarinin tərkib hissəsi idi. Bununla yanaşı, bir çox azərbaycanlı ailələr erməni qonşularını evlərində gizlədərək onların həyatını xilas etmişdilər. 1989-cu ilin dekabrında Azərbaycan SSR Ali Məhkəməsi E.Qriqoryanın Sumqayıt hadisələrinin təşkilatçılarından biri olduğunu təsdiqləyərək onu 12 il həbs cəzasına məhkum etmişdi. Məhkəmədə ifadələrə əsasən Qriqoryan ermənilərin yaşadıqları mənzillərin siyahısını hazırlamış və bu siyahıya uyğun şəkildə təxribatlar həyata keçirmişdi.

Sumqayıtda iğtişaşlar baş verən dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları daha da güclənmiş və bu səbəbdən minlərlə azərbaycanlı doğma torpaqlarından didərgin salınaraq Sumqayıta sığınmışdı. Məlumatlara görə, hadisələrdən əvvəl şəhərdə 18 min 330 qaçqın məskunlaşmışdı ki, onların arasında dörd rus ailəsi də var idi. Qaçqınların şəhərə axını davam edirdi və onlar ağır sosial şəraitdə yaşayırdılar. Ermənistanda isə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılırdı.

1988-ci ilin yanvarında Ağdam-Əsgəran yolunda iki azərbaycanlı gəncin ermənilər tərəfindən qətlə yetirilməsi Azərbaycan ictimaiyyətində böyük qəzəb doğurmuşdu. Hadisələrin təhlili göstərir ki, Sumqayıt təxribatı erməni təşkilatları tərəfindən əvvəlcədən planlaşdırılmış hücumlar öncədən müəyyənləşdirilmiş ünvanlarda həyata keçirilmişdi. Belə ki, XIX-XX əsrlərdə erməni təşkilatlarının fəaliyyətinə dair arxiv sənədlərində göstərilir ki, bu təşkilatlar "ümumi erməni işi" üçün pul yığır və vəsait ödəməyən erməniləri cəzalandırırdılar. Sumqayıt hadisələri zamanı da E.Qriqoryanın dəstəsi məhz erməni təşkilatlarına pul ödəməyən şəxsləri hədəfə almışdı. Onların adları və ünvanları təxribatçılara məlum idi. Təşkilatçıların əvvəlcədən videokameralar hazırlamaları, gizli çəkilişlər aparmaları və bu görüntüləri montaj edərək müxtəlif ölkələrə yaymaları Sumqayıt hadisələrinin Ermənistan xüsusi xidmət orqanları və SSRİ DTK tərəfindən planlaşdırıldığı qənaətini yaradır. Bundan əlavə, şəhərin erməni sakinlərinin iğtişaşlardan əvvəl əmanət banklarından pullarını çıxarması onların hadisələrdən xəbərdar olduqlarını göstərir. Sumqayıt hadisələri zamanı həlak olan ermənilərə Xankəndidə tələm-tələsik abidə ucaldılması da bu təxribatın əvvəlcədən hazırlanmış ssenari əsasında həyata keçirildiyini təsdiqləyən faktlardandır.

Ermənistanın əsassız ərazi iddiaları fonunda mərkəzi hakimiyyət hadisələrin Azərbaycanda hansı istiqamətdə inkişaf edəcəyindən narahat idi. Bu iğtişaş vasitəsilə SSRİ rəhbərliyi respublikanı təzyiq altında saxlamaq, istədiyi qərarları qəbul etdirmək və beynəlxalq aləmdə nüfuzuna zərbə vurmaq niyyəti güdürdü. Digər tərəfdən, bu hadisə Ermənistan rəhbərliyi üçün daha geniş anti-Azərbaycan kampaniyasına başlamaq və ölkəmizə qarşı təcavüz siyasətinə bəraət qazandırmaq, saxta şəkildə azərbaycanlıları "vəhşi" kimi təqdim etmək və ermənilərlə birgə yaşayışın mümkünsüzlüyünü dünyaya göstərmək üçün mühüm təbliğat vasitəsinə çevrildi. Sumqayıt hadisələri və keçmiş Qarabağ münaqişəsi ilə bağlı məsələlər Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il 29 fevral tarixli iclasında müzakirə olunmuşdu. SSRİ Prokurorluğunun istintaq-əməliyyat qrupunun üzvü olmuş Vladimir Kaliniçenko və digər hüquq-mühafizə orqanlarının nümayəndələri sonradan bildirmişdilər ki, Sumqayıt hadisələri erməni lobbisinin maraqlarına uyğun olaraq SSRİ rəhbərliyinin sifarişi ilə SSRİ DTK tərəfindən təşkil edilmişdir.

SSRİ Konstitusiyasına əsasən Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuni olduğunu anlayan erməni ideoloqları və SSRİ rəhbərliyində onları dəstəkləyən şəxslər azərbaycanlılarla ermənilərin birgə yaşayışının mümkünsüzlüyünü sübut etmək, eyni zamanda Ermənistan ərazisində azərbaycanlıların tamamilə qovulmasını reallaşdırmaq üçün bu təxribat ssenarisini həyata keçirirdilər. Lakin həqiqət zamanla üzə çıxmış və Sumqayıt hadisələrinin əsl mahiyyəti aydın olmuşdur. Azərbaycan xalqı tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün mübarizəsini davam etdirir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 28 fevral (№ 45).- S.11.